

**Yusifov Mehman Musa oğlu**

Mehman Musa oğlu Yusifov 1979-cu il iyulun 18-də Tovuz rayonunun Bayramlı kəndində anadan olub. 1985-1996-cı illərdə Tovuz rayonunda E. Orucov adına Bayramlı kənd tam orta məktəbində təhsil alıb.

Mehman Yusifov 1998-2000-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2002-ci ildən isə artıq Xüsusi Təyinatlı Qüvvələrdə gizir idi. 2016-cı ilin 2-5 aprelində baş verən Aprel döyüşlərində iştirak edib.

Azərbaycan Ordusunun baş giziri olan Mehman Yusifov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Mehman Yusifov Cəbrayıl döyüşləri zamanı şəhid olub. 06 oktyabr 2021-ci il tarixdə Tovuz rayonunun Bayramlı kəndində dəfn olunub.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə baş gizir Yusifov Mehman Musa oğlu “Qarabağ” ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.